SƏRBƏST AUDİTOR
Musayev Adıgözəl Maqsud oğlu
VÖEN 1900227672
Audit Lisenziyası № 047514, 12.09.2011.
Bakı ş., Günəşli qəs."D" yaşayış massivi, ev 26, mən.127.
Telefon: (050) 3130599

**№ 002** **«06» iyun 2013-cü il**

# MÜSTƏQİL AUDİTOR HESABATI

***Maliyyə hesabatları***

Mən, «GƏNCƏ CİHAZQAYIRMA ZAVODU» Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2012-ci il tarixinə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə hesabatlardan, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardım.

***Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti***

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması, müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

***Auditorun məsuliyyəti***

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standart məndən etik normalara riayət etməyi və auditin planlaşdırılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcədə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətəndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aidolan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Mənim fikrimcə, maliyyə hesabatları 31 dekabr 2012-ci il tarixinə Cəmyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**Sərbəst Auditor:** ____________ **Adıgözəl Musayev**